

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 215 (21.116)

12 noyabr 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Macarıstana işgüzar səfərə gedib.

* * *

Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüşdə çıxış edən Macarıstanın Baş naziri Viktor Orban Prezident İlham Əliyevin səfərinin əhəmiyyətini yüksək qiymətləndirdi, ölkənin parlamentində və ümumiyyətlə, siyasi həyatında Azərbaycana böyük marağın olduğunu vurğuladı.

Sonra Prezident İlham Əliyev çıxış etdi.

Geniş tərkibdə görüşdən sonra Azərbaycan-Macarıstan sənədləri imzalanıb.

* * *

Noyabrın 11-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Macarıstanın Baş naziri Viktor Orban və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata birgə bəyanatlarla çıxış ediblər.



## Şərur rayonunda yeni sosial obyektlər istifadəyə verilmişdir

### Dövlət qurumları yeni inzibati binada fəaliyyət göstərəcəkdir





Muxtar respublikada dövlət qurumlarının iş şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Son illər müasir inzibati binaların tikilməsi, mövcud olanlarda yenidənqurma işlərinin aparılması da bu məqsədə xidmət edir. Yaradılan şərait əhaliyə göstərilən xidmətin keyfiyyətinin də yüksəldilməsinə imkan verir.

Noyabrın 11-də Şərur şəhərində dövlət qurumları üçün yeni inzibati bina istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində çıxış edərək demişdir: "Şərur rayonunda həyata keçirilən quruculuq tədbirləri bütün sahələri əhatə edir. Təhsil, səhiyyə, mədəniyyət və digər dövlət strukturlarının iş şəraitinin yaxşılaşdırılması, ictimai yaşayış binalarının yenidən qurulması, hərbi xidmətlər zamanı sağlamlığını itirmiş şəxslərin evlərlə təmin olunması bu sahədə görülən işlərin tərkib hissəsidir. Bu gün istifadəyə verilən inzibati binada Şərur rayonunun 9 dövlət təşkilatı fəaliyyət göstərəcəkdir".

Ali Məclisin Sədri demişdir: "Yaxşı iş şəraiti xidmətin düzgün təşkili ilə yanaşı, həm də yaxşı əhval-ruhiyyə deməkdir. Eyni zamanda hərtərəfli iş şəraitinin yaradılması dövlət təşkilatlarında çalışanlara göstərilən qayğının daha bir ifadəsidir. Vətəndaşların müraciətlərinə diqqətlə yanaşılması, onların problemlərinin araşdırılması və qanuni şəkildə həll olunması isə dövlət orqanlarının qarşısında duran əsas vəzifələrdir. Binada fəaliyyət göstərəcək dövlət qurumları da qarşıya qoyulan bu vəzifələri uğurla yerinə yetirməli, əməkdaşlar işə məsuliyyətlə yanaşmalı, yaradılan şəraitə öz xidməti vəzifələrini düzgün icra etməklə cavab verməlidirlər".

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə, aidiyyəti üzrə müraciət edən vətəndaşların qayğı ilə əhatə olunacağına əminliyini bildirmiş, kollektivlərə işlərində uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra binaya baxış olmuşdur.

Məlumat verilmişdir ki, yenidənqurma işlərindən sonra inzibati binada Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Şərur Rayon Şöbəsi, Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik, Mənzil İstismar Sahəsi, rayon Məşğulluq Mərkəzi, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Şərur Rayon Şöbəsi, Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin Şərur Rayon Bölməsi fəaliyyət göstərəcəkdir. Binada Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatı, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublikası Təşkilatının Şərur Rayon Şöbəsi və Şərur Rayon 2 nömrəli Dövlət Notariat Kontoru üçün də müasir iş otaqları ayrılmışdır.

Otaqların hər biri təyinatı üzrə qurulmuş və ayrı-ayrı strukturların iş prinsipinə uyğun təchiz olunmuşdur. Bütün bunlar əməkdaşların səmərəli fəaliyyət göstərməsinə və sakinlərin rahatlığının təmin olunmasına xidmət edəcəkdir.

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Şərur Rayon Şöbəsi üçün ayrılan iş otaqlarına baxış zamanı torpaqlardan təyinatı üzrə səmərəli istifadənin əhəmiyyəti vurğulanmışdır. Rayon Məşğulluq Mərkəzi üçün yaradılan müasir iş şəraiti bu sahədə fəaliyyətin daha səmərəli təşkilinə imkan verəcəkdir. Qeyd olunmuşdur ki, əldə olunan davamlı iqtisadi inkişaf Şərur rayonunda məşğulluq məsələlərinin də səmərəli həllini şərtləndirmiş, rayonda məşğulluq səviyyəsinin daha da yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Təkcə bu ilin 10 ayı ərzində rayonda 4 əmək yarmarkası keçirilmiş, 107 nəfər daimi işlə təmin olunmuşdur.

Üç mərtəbədən ibarət olan binanın zirzəmisində yeməkxana yerləşir. Yenidənqurma işləri zamanı binanın bütün kommunikasiya xətləri dəyişdirilmiş, müasir istilik sistemi quraşdırılmışdır.

## Şərur şəhərində ictimai yaşayış binası yenidən qurulmuşdur





Muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirləri inzibati binalarla yanaşı, yaşayış binalarının da müasir standartlar səviyyəsində yenidən qurulmasına səbəb olmuşdur. Sakinlərin rahatlığına xidmət edən bu işlər Şərur şəhərini də əhatə etmiş, şəhər mərkəzindəki ictimai yaşayış binaları əsaslı təmir olunmuşdur. Həyata keçirilən tədbirlər Şərur şəhərinin memarlıq quruluşunu tamamilə dəyişmiş, prospekt və küçələr müasir görkəm almışdır.

Ardı 2-ci səhifədə

Şəhərin Nəriman Nərimanov küçəsindəki 7 nömrəli yaşayış binası da bu il həyata keçirilən quruculuq tədbirləri çərçivəsində yenidən qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sakinləri təbrik edərək demişdir: “Şərur rayonunda aparılan abadlıq-quruculuq işləri çərçivəsində 7 nömrəli ictimai yaşayış binası da əsaslı şəkildə yenidən qurulmuşdur. 1964-cü ildə istifadəyə verilən bina müasir tələblər səviyyəsində qurulmuş, mənzillərin sahəsi genişləndirilmiş, burada yaşayan 18 ailənin sosial məişət şəraiti xeyli yaxşılaşdırılmışdır”.

Sakinlər adından minnətdarlıq edən Rəşidə Vəliyeva demişdir ki, bu gün ölkəmizdə həyata keçirilən tədbirlər, aparılan islahatlar əhalinin rahat yaşayışına xidmət edir. Bu tədbirlər Şərur rayonunu da əhatə edib. Şərur şəhəri artıq öz müasir görkəmi ilə diqqəti cəlb edir. Hər il yeni binalar tikilir, park və xiyabanlar salınır, yollar təmir edilir. Bu işlər əhalinin rahat yaşayışına xidmət etməklə yanaşı, onların qurub-yaratmaq əzmini də artırır. Artıq 7 nömrəli ictimai yaşayış binasının sakinləri mənzillərində rahat yaşayacaqlar.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim etmiş, sakinlərə xoş həyat və uzun ömür arzulamışdır.

Bildirilmişdir ki, 2 mərtəbədən ibarət olan binada 18 mənzil vardır. Mənzillərdən 15-i ikiotaqlı, 3-ü isə üçotaqlıdır. Binanın interyeri tamamilə yenilənmiş, hər bir mənzildə kommunal şərait yaradılmışdır. Yenidənqurma işləri zamanı binanın elektrik, qaz, su və kanalizasiya sistemləri dəyişdirilmiş, mərkəzi antena sistemi qurulmuşdur. Şəhərə xüsusi gözəllik bəxş edən binanın fasadı da tamamilə yenilənmiş, həyətdə abadlıq işləri görülmüş, yaşıllıqlar salınmışdır.





## Sosial qayğıya ehtiyacı olan Çomaxtur kənd sakinləri üçün fərdi ev tikilmişdir

Muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri zamanı insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzindədir. Bu tədbirlərin davamı olaraq, hərbi xidmət zamanı sağlamlığını itirmiş Şərur rayonunun Çomaxtur kənd sakinləri Rəşad Şahtaxtinski və Nəbi Nəcəfov üçün fərdi evlər tikilmişdir.

Noyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov fərdi yaşayış evlərinin orderlərini təqdim etmişdir.

Rəşad Şahtaxtinski yeni mənzillə təmin olunmalarını bu kateqoriyadan olan insanlara göstərilən qayğının daha bir ifadəsi kimi dəyərləndirmiş, ailə üzvləri adından minnətdarlıq etmişdir.

Mənzillərdə sakinlərin rahatlığı üçün hər cür şərait vardır. İkiotaqlı evlərin hər birində müasir kommunal şəraiti yaradılmış, elektrik və qaz xətləri çəkilmişdir.

## Şərur şəhərində idman meydançası istifadəyə verilmişdir

Son illər Şərur rayonunda yaradılan müasir idman infrastrukturu gənclərin idmana olan marağını xeyli artırmışdır. Ayrı-ayrı idman növlərinin inkişafı üçün görülən bu işlər idmanın kütləviliyinə nail olunmasına və fiziki cəhətdən sağlam gəncliyin yetişdirilməsinə hesablanmışdır.

Noyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur şəhərindəki Əl Topu Oyunları İdman Meydançasında yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, meydançanın uzunluğu 42, eni isə 31 metrdir. 292 tamaşaçı tutumu olan meydançada müxtəlif səviyyəli idman yarışlarının keçirilməsi üçün hər cür şərait vardır. Gənclər burada günün istənilən saatında idmanla məşğul ola biləcəklər.

Ali Məclisin Sədri gənclərin idmana cəlb edilməsinin vacibliyini vurğulamış, rayon təşkilatları və ümumtəhsil məktəbləri arasında müxtəlif idman yarışlarının keçirilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur şəhərində aparılan quruculuq işləri ilə də maraqlanmışdır.

Məlumat verilmişdir ki, hazırda Şərur şəhərinin Heydər Əliyev prospektində yerləşən 50 nömrəli ictimai yaşayış binası yenidən qurulur. Üç mərtəbədən ibarət olan binada 24 mənzil vardır. Binanın qapı və pəncərələri dəyişdirilmiş, kommunikasiya sistemləri tamamilə yenilənmişdir. Hazırda binanın fasadında və həyətində də yenidənqurma işləri aparılır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**





## Payız mövsümünün ilk iməciliyində yeni yaşıllıqlar salınmışdır

Yaşıllıqların artırılmasında payız mövsümündə keçirilən iməciliklər mühüm əhəmiyyətə malikdir. Bu fəsildə əkilən ağaclar yaz aylarında daha yaxşı inkişaf edir. Ona görə də muxtar respublikada yaşıllaşdırma tədbirləri payız fəslində də davam etdirilir, meşəbərpa işləri aparılır, sututarların ətrafında, çayların vadilərində yeni yaşıllıq zolaqları salınır.

Noyabrın 8-də muxtar respublikada payız mövsümünün ilk iməciliyi keçirilmişdir. İctimaiyyətin nümayəndələri, idarə, müəssisə və təşkilatların kollektivləri iməciliyə çıxaraq yaşıllıqların salınmasında fəallıq göstərmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Uzunoba Su Anbarının ətrafındakı 3 hektarlıq sahədə keçirilən iməcilikdə iştirak etmişlər. İməcilik iştirakçıları əraziyə 3500 ədəd müxtəlif meyvə tingi və meşə ağacı əkərək suvarmış, ətrafda səliqə-sahman yaratmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, Uzunoba Dövlət Meşəsində meşəbərpa və meliorativ tədbirlərin həyata keçirilməsi, payızlıq ağac əkininin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*12 Noyabr Konstitusiya Günüdür*

## Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarının təminatıdır

***Hər il 12 Noyabr – Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin dönməz iradəsi, gərgin əməyi və siyasi uzaqgörənliyi nəticəsində mümkün olmuşdur.***

Yeni Konstitusiyanın qəbul olunmasına qədər keçmiş SSRİ qanunları Azərbaycan Respublikası ərazisində qüvvədə olmuşdur. 1991-ci il oktyabr ayının 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”nın 4-cü maddəsində Azərbaycan Respublikasının 1978-ci il Konstitusiya Aktının müddəalarına zidd gəlməyən bir çox tələbləri qüvvədə qalmışdı. Buna görə də ümummilli liderimiz tərəfindən İşçi Komissiyasının tərkibi barədə 1995-ci ildə müvafiq qərar qəbul edilmiş, iyul ayından noyabr ayınadək həmin komissiyanın 9 iclası keçirilmişdir. Ulu öndər yeni Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək demişdir: ***“Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun”.***

Ümummilli liderimiz tərəfindən yeni Konstitusiyanın qəbuluna bu cür yanaşma qısa zaman kəsiyində öz müsbət bəhrəsini verdi. 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul olundu və noyabrın 27-də qüvvəyə mindi. Konstitusiyanın qəbul edilməsi Azərbaycan xalqının tarixi ənənələrinə, müasir hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə tam cavab verir. Bəşəriyyətin uzun illər ərzində nail olduğu mütərəqqi dəyərləri özündə ehtiva edən Konstitusiyamızın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin dünya birliyində nüfuzunun daha da artması baxımından mühüm ictimai-siyasi hadisə idi.

Əsas Qanunun preambula hissəsində Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq,

*Ardı 3-cü səhifədə*

demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq və digər bu kimi ülvi niyyətlər əks olunmuşdur. Dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olmasına təminat verən Konstitusiyada xalqın suveren hüququnun həyata keçirilməsi mexanizmi müəyyən edilmişdir. Belə ki, Konstitusiyaya görə, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Əsas Qanun Azərbaycan dövlətini hakimiyyətlərin bölünməsi prinsiplərinə əsaslanan demokratik, hüquqi, dünyəvi və unitar respublika kimi müəyyən etmişdir. Konstitusiyaya ilk dəfə olaraq hakimiyyətlərin bölünməsi prinsipi daxil edilmiş, sağlam siyasi mühitin formalaşması, ölkə vətəndaşlarının dövlətin idarə olunmasında iştirakını nəzərdə tutan siyasi müxtəliflik və plüralizm prinsipləri təsbit edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqlarına geniş yer ayrılmışdır. Bu isə dövlətin demokratik ənənələrə və insan hüquqları ideyasına əməl etmək istəyindən xəbər verir. Elə bu səbəbdəndir ki, Konstitusiyanın üçdə bir hissəsi insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur. Əsas Qanunun 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilir.

Ölkəmizdə hakimiyyət orqanları sisteminin əsaslarını müəyyənləşdirən Konstitusiyamızın qəbul edilməsindən sonra siyasi sistem də tənzimlənmişdir. Belə ki, birbaşa xalqın iştirakı ilə azad və demokratik şəraitdə seçilmiş qanunvericilik orqanı tərəfindən ictimai-siyasi və digər sahələri əhatə edən yüzlərlə qanunvericilik aktları qəbul edilmişdir. Həmçinin respublikamızın müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının, xalqımızın vahidliyini təcəssüm etdirən və dövlətçiliyin varisliyini təmin edən, məhkəmə hakimiyyətinin müstəqilliyinin real təminatçısı olan Prezident institutu formalaşmışdır. Konstitusiyada ilk dəfə olaraq yerli özünüidarəetmə institutu olan bələdiyyə orqanlarının yaradılması nəzərdə tutulmuş və bu gün də həmin institut uğurla fəaliyyət göstərməkdədir. Konstitusiyamızın 125-ci maddəsinə görə, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Ölkə tarixində ilk dəfə olaraq əsas məqsədi Konstitusiyanın aliliyini təmin etmək, hər kəsin hüquq və azadlıqlarını müdafiə etməkdən ibarət olan ali konstitusiya orqanının – Konstitusiya Məhkəməsinin yaradılması və fəaliyyət göstərməsi isə respublikamızda ədalət mühakiməsinin səmərəliliyinin artmasında müstəsna əhəmiyyətə malikdir.

Beynəlxalq hüquq normaları hər bir dövlətin hüquq sisteminin əsas tərkib hissəsini təşkil edir və hüquq sistemi məhz bu mexanizmlərlə tənzimlənir. Konstitusiyanın 148-ci maddəsinin ikinci hissəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlarla (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Bu müddəa ölkəmizin hüquq sisteminin beynəlxalq hüquqa uyğunlaşması baxımından mühüm əhəmiyyətə malikdir.

Konstitusiyanın qəbulundan ötən dövr ərzində cəmiyyətimizdə əhəmiyyətli dəyişikliklər baş vermiş, respublikamızda siyasi, hüquqi, iqtisadi və digər sahələri əhatə edən islahatlar həyata keçirilmiş, insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsini təmin edən mükəmməl baza yaradılmışdır. Son 19 il ərzində Azərbaycanda genişmiqyaslı məhkəmə islahatları həyata keçirilmiş, hüquqi dövlət üçün zəruri olan yeni demokratik təsisatlar yaradılmış, nüfuzlu beynəlxalq təşkilatlara inteqrasiya istiqamətində mühüm addımlar atılmışdır.

2002-ci ildə Azərbaycanda konstitusion dəyişikliklərə yaranan ehtiyac məhz bütün sahələr üzrə əldə olunan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklər edilməsi məqsədilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" Fərmanına əsasən, 2002-ci il avqustun 24-də keçirilmiş referendumla Konstitusiyamıza obyektiv reallıqdan irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edildi. Bu isə ölkəmizin İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına inteqrasiyasından, məhkəmə islahatlarının həyata keçirilməsi öhdəliklərinə əməl olunmasına, seçki sisteminin təkmilləşdirilməsinə xidmət edirdi.

Son illər ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində əldə edilən uğurlar – sosial-iqtisadi islahatların dərinləşməsi, demokratikləşmə prosesinin sürətlənməsi, vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının dövlət dəstəyi ilə əhatə olunması özlüyündə Azərbaycan Respublikası Konstitusiyasında yenidən bir sıra əlavə və dəyişikliklərin edilməsini şərtləndirdi. Həmçinin Avroatlantik məkana inteqrasiya prosesinin yüksək dinamizmlə davam etdirilməsi Konstitusiyaya bir daha nəzər salmağı, onu daha da təkmilləşdirməyi vacib sayırdı. 2009-cu il martın 18-də Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı keçirilən referendum Azərbaycan xalqının demokratikləşmə və liberallaşmaya xidmət edən, insan hüquqlarının qorunmasında əlavə imkanlar açan islahatları dəstəklədiyini bir daha təsdiqlədi. Yeni əlavə və dəyişikliklər mahiyyətcə Konstitusiyanın daha da təkmilləşməsinə, insan və vətəndaş hüquq və azadlıqları ilə bağlı prinsipial əhəmiyyətli məsələlərin bu sənəddə daha dolğun ifadəsini tapmasına xidmət etməklə yanaşı, onun müddəalarının liberallığı, demokratik səciyyə daşıması ilə seçilirdi. Respublikamızda sosial-iqtisadi inkişafla paralel şəkildə hüquqi və siyasi islahatların da genişləndirilməsinə təminat yaradan bu Konstitusiya islahatı həm də xalqın hakimiyyətə olan inamının bariz nümunəsi idi.

Konstitusiyamızın səkkizinci fəsli, bütövlükdə, Naxçıvan Muxtar Respublikasına həsr olunmuşdur. Həmin fəsildə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi təsbit olunmuş, muxtar respublikada hakimiyyətlərin bölgüsü və onların səlahiyyət dairələri müəyyənləşdirilmişdir. Konstitusiyanın 134-cü maddəsində qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan sonra Naxçıvan Muxtar Respublikasının 6 fəsil, 50 maddə və keçid müddəalarından ibarət olan Konstitusiyası hazırlanaraq qəbul olunmuş, Azərbaycan Respublikasının 1998-ci il 29 dekabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmiş və 8 yanvar 1999-cu il tarixdən qüvvəyə minmişdir. Bu Konstitusiyaya görə, Naxçıvan Muxtar Respublikasına geniş səlahiyyətlər verilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 2-ci maddəsinin birinci hissəsinə əsasən, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir. Həmçinin burada Naxçıvan Muxtar Respublikasının konstitusion inkişafı tarixində ilk dəfə olaraq demokratik-hüquqi dövlətin əlamətlərindən olan hakimiyyətlərin bölünməsi prinsipi öz əksini tapmış, Ali Vəzifəli Şəxs institutu təsbit olunmuşdur. Konstitusiyanın 5-ci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Vəzifəli Şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir və onun həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində səlahiyyətləri vardır.

Bütün sivil və müasir konstitusiyalar kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası da insan və vətəndaş hüquq və azadlıqlarına təminat verir. Konstitusiyanın 7-ci maddəsinə əsasən, insan və vətəndaşların hüquq və azadlıqlarının qorunması və Azərbaycan Respublikası vətəndaşlarının vəzifələrinin icrasının təmin edilməsi Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının əsas vəzifəsi hesab edilir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına Azərbaycan Respublikasının 2005-ci il 21 oktyabr tarixli, 2006-cı il 2 oktyabr tarixli, 2010-cu il 30 sentyabr tarixli, 2011-ci il 15 noyabr tarixli Konstitusiya qanunları ilə dəyişikliklər edilmişdir. Bu dəyişikliklər Naxçıvan Muxtar Respublikasında dövlət quruculuğu sahəsində islahatların həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının yaradılması, ali dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi ilə bağlı olmuşdur.

*Əsas Qanunumuz müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, respublikamızın sürətli inkişafında və beynəlxalq aləmdə nüfuzunun artmasında hüquqi baza rolunu oynayır. Bunu nəzərə alaraq Konstitusiyanın qəbulu günü dövlət bayramı kimi xalqımız tərəfindən böyük sevinclə qeyd olunur. Bu gün ən ümdə vəzifə ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi:* ***"...Konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir. Hər bir kəs Konstitusiya qanunlarına dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir".***

**"Şərq qapısı"**

# Ordubad – gözəl, unudulmaz qədim şəhər

***Jurnalist və tədqiqatçı Peter Tase "eurasiahoy.com" xəbər portalında muxtar respublikaya həsr etdiyi 4-cü məqaləsi ilə çıxış etmişdir. "Ordubad – gözəl, unudulmaz qədim şəhər" sərlövhəsi ilə verilən bu məqalədə Ordubad rayonunun qədim tarixi, bura aid olan milli xüsusiyyətlər, rayon ərazisində aşkar olunan ilk insan məskənləri, yaradılan müasir infrastruktur haqqında söhbət açılır. Məqalədə IV Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Ordubada səfər etdiyini xatırladan jurnalist bu qədim Azərbaycan şəhərini Şərqin canlı muzeyi kimi qələmə verir və inkişaf səviyyəsinə görə Qərbi Avropa şəhərləri ilə müqayisə olunduğunu vurğulayır. Məqalənin ispan dilindən tərcüməsini qəzetimizin bugünkü nömrəsində oxuculara təqdim edirik.***



2014-cü il oktyabrın 5-də Azərbaycana ilk səfərim zamanı Naxçıvan Muxtar Respublikasının qədim Ordubad şəhərinə səfər etmək imkanım oldu. Naxçıvan vaxtilə Azərbaycanın Prezidenti olmuş Heydər Əliyevin doğulduğu yerdir. Heydər Əliyev Sovet İttifaqı dağıldıqdan sonra öz müstəqilliyini qazanan, bu gün iqtisadiyyatı sürətlə inkişaf edən, demokratik və müstəqil Azərbaycan dövlətinin banisidir.

Ordubad şəhərinin mərkəzinin gözəl mənzərəsi var. İnsanları çox qonaqpərvər və istiqanlıdır. Gözəl mənzərələr və müasir infrastruktur turistlərin diqqətini cəlb edir. Ordubad şəhərində yaradılmış infrastruktur, həqiqətən də, Qərbi Avropanın şəhərlərindəki kimidir. Tarixən strateji yer hesab olunan Ordubada səfər edən turist və tədqiqatçılara buranın qədim mədəniyyətini tanıtmaq imkanı vardır. Ordubad şəhərində XVI əsrə aid olan bazarın yanında hazırda muzey kimi fəaliyyət göstərən tarixi Qeysəriyyə binası yerləşir. Tarixən bu regionda 3 belə Qeysəriyyə binası olmuşdur. Digər iki Qeysəriyyə binaları Səmərqənd və Təbrizdədir. Ordubaddakı Qeysəriyyə binası 1990-cı ildən bəri Tarix Muzeyi kimi fəaliyyət göstərir.

Ordubad qədim tarixə, özünəməxsus adət-ənənələrə və milli xüsusiyyətlərə malik olan rayondur. Rayon Kiçik Qafqazın zirvəsi sayılan Qapıcıq dağının ətəyində yerləşir. Cəlbedici təbiət mənzərələrinə malik olan Ordubadın bir hissəsi dağətəyi, 5 faizi isə düzənlik ərazidir. Ordubadın həddindən artıq zəngin flora və faunası vardır. Yaşayış məntəqələri, əsasən, dağətəyi ərazidə yerləşir. Zəngin içməli su mənbələri suvarma üçün də istifadə edilir. Ordubad cənub tərəfdən İran, şimal tərəfdən Ermənistanla, qərbdən isə Naxçıvanın Culfa rayonu ilə həmsərhəddir.

Şəhərin sərhədləri, hələlik, tam müəyyənləşdirilməyib. Bu ərazinin dünyadakı ən qədim insan məskəni olduğu güman edilir. Ordubad şəhərinin adına ilk dəfə V əsr yazılı mənbələrində rast gəlinib. Rayonda yerləşən Gəmiqaya dağında qədim dünyanın böyük panteonlarının olduğu güman edilir. Dağdakı petroqliflər və burada aşkar edilən insan yaşayış məskənləri onu deməyə əsas verir ki, qədim insanların məskən saldığı, mədəni inkişaf etdikləri Ordubadın tarixi bizim eradan əvvəl I-VII əsrlərə aiddir. İnsanların tarixən məskən saldığı bu yerlər, həmçinin buradakı qəbiristanlıqlar miladdan əvvəl II minilliyə aiddir. Belə ki, bu ərazidə Ordubad, Sabirkənd, Plovdağ və Xaraba Gilan adlandırılan qədim insan yaşayış məskənləri mövcuddur. Bununla yanaşı, rayon ərazisində əldə olunan tapıntılar bizə deməyə əsas verir ki, Ordubadın tarixi 7 min il əvvələ aiddir.






Ordubad təkcə özünün rəngarəng gözəllikləri ilə deyil, həm də yetirdiyi tanınmış şəxslər, incəsənət adamları və dünya şöhrətli alimləri ilə tanınır. Məşhur astronom-alim, riyaziyyatçı və şair Nəsirəddin Tusinin davamçıları və qohumları hələ də Ordubadda yaşayır. Ordubad Yaxın Şərq və Şərqi Asiya ilə ticarət əlaqələri saxlayan mühüm ticarət marşrutlarının kəsişdiyi yerdə yerləşir. Ərazisində 40 növ üzüm yetişir. Ordubad ipəyi Venesiya, Marsel, Amsterdam və digər Avropa şəhərlərinə XVI əsrin ikinci yarısından başlayaraq ixrac edilmişdir. Ordubad ipəyi XX əsrin əvvəllərində keçirilmiş beynəlxalq sərgilərdə 13 qızıl medala layiq görülmüşdür.

Bu gün valehedici Ordubad şəhəri Şərq aləminin canlı muzeyi hesab olunur. Avropa və Asiya arasında coğrafi və etnoqrafik əlaqəni təmin edən şəhər öz tarixini və ənənələrini qoruyaraq nəsildən nəslə ötürür. Ona görə də Ordubad öz quruluşu və tarixi-memarlıq abidələrinə görə qoruq elan olunmuş, 1977-ci ildə bəşəriyyətin xəzinəsi kimi tanınmışdır.

# Rabitə və yeni texnologiyaların tətbiqi diqqət mərkəzindədir

*Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni texnologiyaların tətbiqi, rabitə sisteminin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində davamlı işlər görülür. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və onun strukturuna daxil olan idarə və müəssisələr tərəfindən bu məsələ daim diqqətdə saxlanılır.*

Oktyabr ayında sabit telekommunikasiya sektorunun inkişaf etdirilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi, keyfiyyətli və dayanıqlı telefon rabitəsinin təşkili məqsədilə mövcud telefon stansiyalarının nömrə tutumlarının artırılması və CDMA simsiz rabitənin genişləndirilməsi işləri davam etdirilmişdir. Bu məqsədlə ötən ay, ümumilikdə, 373 yeni telefon nömrəsi istismara verilmiş, o cümlədən əvədək optika layihəsi üzrə çəkilən xətlərin sayı 32-yə çatdırılmışdır.

Yeni infrastrukturun qurulması ilə əlaqədar Ordubad rayonunun Aşağı və Yuxarı Əylis kəndləri arasında 7 min 137 metr yeraltı fiber-optik kabel çəkilmiş, optik modem qoşularaq arabağlantı təmin edilmişdir. Bu layihələr çərçivəsində yeni avtomat telefon stansiyaları da qurulmuş, əhaliyə nümunəvi rabitə xidməti göstərilməsi üçün müasir şərait yaradılmışdır. Belə ki, Şərur rayonunun Diyadin kəndində 96 nömrə tutumlu yeni ATS istifadəyə verilmiş, Babək rayonunun Güznüt kəndində mövcud ATS yeni nəsil ATS-lə əvəz olunmuşdur. Şahbuz şəhərində həyata keçirilən müasir şəhərsalma tədbirləri ilə əlaqədar olaraq, mövcud ATS yeni binaya köçürülmüş və şəhər daxilində 800 metr, Şahbuz şəhər 2 nömrəli tam orta məktəbinə 130, rayonun bir sıra kəndlərinə 11 kilometrdən artıq fiber-optik kabel çəkilmişdir. Nursu kəndindəki ATS yeni binaya köçürülmüşdür. Bu istiqamətdə işlər Sədərək rayonunu da əhatə etmiş, Heydərabad qəsəbəsindəki ATS ilə rayon ərazisindəki hərbi hissə arasında 300 metr məsafədə fiber-optik kabel bağlantısı yaradılmışdır. Oktyabr ayı ərzində, ümumilikdə, uzunluğu 248 km olan Ordubad-Sədərək alternativ 48 lifli fiber-optik magistral xətti üzərində bütün istiqamətlərdə ölçmə işi başa çatdırılmışdır.

“2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nda nazirlik qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Proqramın icrası ilə əlaqədar distant tədrisin təşkili məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmış və oktyabr ayının əvvəlində istifadəyə verilmişdir.

Müasir texnologiyaların elm, təhsil və digər sahələr üzrə tətbiqi bu günün ən mühüm şərti, inkişafın əsas meyarıdır. Buna görə də muxtar respublikada müasir informasiya texnologiyalarının ayrı-ayrı sahələr üzrə tətbiqinə böyük önəm verilir. “Pronet” MMC ilə bağlanmış üçtərəfli müqaviləyə əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya üçün xüsusi dövlət orqanlarına işə qəbul, attestasiya imtahanları və dövlət qulluqçularının reyestri proqram təminatlarının hazırlanması başa çatdırılmışdır. Bundan başqa, “Allstar” şirkətindən alınmış sinxron tərcümə avadanlıqları Naxçıvana gətirilmişdir.

Görülən məqsədyönlü işlər poçt xidmətinin inkişafına da öz töhfəsini verir. “Naxçıvanpoçt” MMC tərəfindən də oktyabr ayında əhaliyə nümunəvi xidmət göstərilmişdir. Bu dövr ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan daxil olan maniqramların məbləği 172 min 230 manat olmuş, rüsumu 4 min 890 manat, sayı isə 1876 ədəd təşkil etmişdir. Colvir sistemi ilə 540 min 349,46 manat maniqram qəbul edilmiş, 1 milyon 57 min 517 manat maniqram ödənişi həyata keçirilmişdir. Ay ərzində muxtar respublikaya 2904 ədəd, 21 min 20 kiloqram çəkidə bağlama daxil olmuş, 253 ədəd 1821 kiloqram çəkidə bağlama göndərilmişdir. Oktyabr ayı ərzində “Naxçıvanpoçt” MMC tərəfindən əhalidən abunə, şəhərlərarası danışıq haqları 210 min 733 manat, elektrik enerji haqqı 480 min 408 manat, qazdan istifadə haqqı 318 min 500 manat, sudan istifadə haqqı 1562 manat olmaqla, cəmi 1 milyon 11 min 203 manat vəsait toplanmışdır. Toplanan vəsaitin 129 min 979 manatı POS-terminal ödənişi vasitəsilə, 7 min 579 manatı onlayn qaydada ödənilmişdir.

Poçt-rabitə xidmətinin təkmilləşdirilməsi istiqamətində görülən işlər çərçivəsində Şahbuz şəhərinin, Şərur rayonunun Diyadin, Culfa rayonunun Dizə, Qazançı, Babək rayonunun Güznüt kənd poçt bölmələrində kompüter dəstləri qurulmuşdur.

Muxtar respublikada yüksəkkeyfiyyətli televiziya və radio yayımlarının təşkili də diqqət mərkəzində saxlanılır. IP televiziya kanallarının keyfiyyətini yaxşılaşdırmaq üçün 8 yeni antena istismara verilmişdir. Həmçinin oktyabr ayının əvvəlində Ukraynanın “Kvant efir” şirkəti ilə bağlanmış müqaviləyə əsasən, 13 azgüclü televiziya verici alınmış, onlardan 3-ü Şərur rayonunun Həmzəli, Culfa rayonunun Gal və Şurud kəndlərində qurularaq istismara verilmişdir.

Televiziya və radioların müasir texnoloji avadanlıqlarla təmin olunması, kadr potensialının yaxşılaşdırılması günlə səsləşən, aktual teleradio məhsullarının hazırlanmasına şərait yaradır. Oktyabr ayı ərzində “Kanal-35” televiziyasında 51 videomaterial ilk dəfə efirə təqdim olunmuşdur. Onlardan 10-u dublyaj redaksiyasında hazırlanmış və 4 film isə tərcümə olunmuşdur. Ümumilikdə, ötən ay ərzində dublyaj olunmuş 157 film tamaşaçılara təqdim edilmişdir.

Ay ərzində Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsi tərəfindən radio-televiziya və mobil operator və digər müəssisələrlə bağlanmış müqavilələrə əsasən, muxtar respublika ərazisində radio-rabitə vasitələrinin istismarına görə nazirliyin büdcəsinə 42 min 923 manat pul vəsaiti daxil olmuşdur. Genişzolaqlı və sürətli internet şəbəkəsinin yaradılması muxtar respublikada internet istifadəçilərinin sayının artmasına da səbəb olmuşdur. Belə ki, ötən ay ərzində 511 abunəçi genişzolaqlı internetə qoşulmuşdur. Üzərində Naxçıvan şəhərinin təsvirləri olan 40 min ədəd internet kartı sifarişlə hazırlanaraq tədavülə buraxılmışdır.

*Rabitə və yeni texnologiyaların inkişafını təmin etmək məqsədilə görülən işlər bundan sonra da davam etdiriləcəkdir.*

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

***Enerji təhlükəsizliyinin təminatında başlıca amillərdən biri də müasir elektroenergetika şəbəkəsinin yaradılmasıdır. Son illər muxtar respublikada bu istiqamətdə əsaslı tədbirlər görülmüş, etibarlı və dayanıqlı elektrik enerjisi şəbəkəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən tələbatçıların elektrik enerjisi təchizatının yaxşılaşdırılması, yaşayış evlərinin, istehsalat və xidmət sahələrinin tələbatının ödənilməsi istiqamətində ardıcıl tədbirlər görülür, yeni transformator yarımstansiyaları qurulur, müxtəlif gərginlikli elektrik verilişi xətləri çəkilir.***

# Muxtar respublikada abonentlər dayanıqlı elektrik enerjisi ilə təmin olunur

Bu sahədə görülən işlər oktyabr ayında da davam etdirilmiş, 110/35/10 kilovoltluq 35 meqavolt-amper gücündə “Qıvraq” yarımstansiyası tikilmiş, yarımstansiyaya 7 kilometr uzunluğunda 110 kilovoltluq, 2 kilometr uzunluğunda ikidövrəli 35 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir. Hazırda 5 kilometr uzunluğunda 10 kilovoltluq elektrik verilişi xətlərinin çəkilişi işləri aparılır. Həmçinin ötən ay 90 meqavolt-amper gücündə 132/110 kilovoltluq “Araz” yarımstansiyasında yeni müasir rele mühafizələri və avtomatika qurğuları, ayırıcı və eleqaz açarlarının quraşdırılmasına başlanmış, yeni idarəetmə otağının tikintisi işi başa çatdırılmışdır. Babək rayonu ərazisində ikitransformatorlu 1260 kilovolt-amper gücünə malik “Nehrəm” yarımstansiyası üçün bina tikilmiş, müasir elektrik avadanlıqları və transformatorların quraşdırılması məqsədilə müvafiq hazırlıq işlərinə başlanmışdır.

Qeyd olunan dövrdə “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a əsasən, şəhərin elektrik sisteminin təkmilləşdirilməsi istiqamətində də bir sıra işlər görülmüşdür. Belə ki, 1 kilometr uzunluğunda 10 kilovoltluq hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmiş, elektrik verilişi xətlərində və transformator yarımstansiyalarında təmir işləri aparılmış, 10 və 0,4 kilovoltluq elektrik xətti çəkilmişdir.

Ötən ay payız-qış mövsümündə əhalinin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması istiqamətində muxtar respublikanın bütün yaşayış məntəqələrində lazımi tədbirlər görülmüşdür. Şərur rayonunda 1,4 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik verilişi xətti çəkilmiş, Dizə, Axura, Diyadin kəndlərində abadlaşdırma işləri ilə əlaqədar elektrik dirəkləri yenilənmiş, 3 komplekt transformator yarımstansiyası əsaslı təmir edilmiş, yeni məhəllələrin elektrik təchizatı təmin olunmuş, 5 kilometr elektrik verilişi xətləri çəkilmişdir. Bundan başqa, Babək rayonunun Güznüt kəndinin elektrik sistemi daha da təkmilləşdirilmiş, elektrik dirəkləri yenisi ilə əvəz edilmiş, yeni transformator yarımstansiyası quraşdırılmış, 3 kilometr məsafədə elektrik xətti dəyişdirilmişdir. Rayonun digər kəndlərində də bu istiqamətdə tədbirlər görülmüşdür. Ümumiyyətlə, Ordubad rayonunda 0,5 kilometr, Culfa rayonunda 1,7 kilometr, Kəngərli rayonunda 1,4 kilometr, Şahbuz rayonunda 1 kilometr, Sədərək rayonunda 0,5 kilometr məsafədə yeni elektrik xətləri çəkilmiş, 8,6 kilometrlik elektrik xətlərində və bir sıra elektrik dirəklərində əvəzlənmə işi aparılmışdır. Naxçıvan, Şərur, Culfa transformator təmiri sexlərində 6 müxtəlifgüclü transformator təmir olunaraq istismara verilmişdir. Həmçinin ay ərzində aid qurumların əməkdaşları ilə birlikdə elektrik enerjisindən israfçılığa və sayğacdankənar istifadə olunmasının qarşısının alınması məqsədilə mütəmadi reydlər keçirilmiş, əhali arasında maarifləndirici söhbətlər aparılmışdır.

Ümumiyyətlə, oktyabr ayında görülən işlər nəticəsində muxtar respublikada elektrik verilişi xətləri, transformatorlar, stansiya və yarımstansiyaların tam fəaliyyəti təmin olunmuşdur. Bu da qış aylarında əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatına şərait yaradır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin kollektivi bu istiqamətdə işləri növbəti aylarda da davam etdirəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti**

# Tələbələr arasında hüquq olimpiadası



***Noyabr ayının 8-də Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında hüquq olimpiadasının I turu keçirilib.***

Bu turda II və III kurs olmaqla, ümumilikdə, 178 tələbə iştirak edib. I turda Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarına, muxtariyyətin tarixi və hüquqi əsaslarına dair 60 suala cavab verməli olan tələbələr qarşıda olimpiadanın II turu gözləyir. Bu turda iştirakçılara test üsulu ilə 60 sual təqdim ediləcək.

Xatırladaq ki, məktəblilər arasında keçirilən hüquq olimpiadasının I turu noyabr ayının 5-də keçirilib.

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombusman) Aparatının təşkilatçılığı ilə keçirilən olimpiadanın nəticələri dövlət qurumları və elm, təhsil müəssisələrinin nümayəndələrindən ibarət yaradılan münsiflər heyəti tərəfindən yoxlanılacaq. Olimpiadanın II (yekun) turunda ən yüksək bal toplayan tələbə və şagirdlər qalib elan ediləcəklər.

# Test-sınaq imtahanı keçirilib

***Noyabr ayının 9-da “İstedad – XXI əsr” Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikanın ümumtəhsil məktəblərinin V-VIII sinif şagirdləri arasında ümumi test-sınaq imtahanı keçirib.***

Ənənəvi olaraq təşkil edilən belə imtahanlarda məqsəd şagirdlərin biliyinin yoxlanılması və elmlərə marağının artırılması, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlıqdır.

İmtahanlar səhər saat $10^{00}$-da başlayıb və iki saat yarım davam edib. Sual kitabçasında şagirdlərə 8 fənn üzrə 100 sual təqdim olunub. Şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb.



Məlumat üçün bildirək ki, test-sınaq imtahanında şagirdlərə iş nömrəsi verilib və kodlaşma aparılıb. Həmin iş nömrəsi vasitəsilə şagirdlər imtahanın nəticələrini www.istedad21.com saytından öyrənə bilərlər.

**Xəbərlər şöbəsi**

*İdman xəbərləri*

# Tələbə-gənclər həftəsi ilə bağlı badminton yarışı

10-17 noyabr – beynəlxalq tələbə-gənclər həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında dünən badminton yarışı təşkil olunub. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışın əsas məqsədi muxtar respublikada bu idman növünü inkişaf etdirmək və kütləviliyə nail olmaqdır. Olimpiya sistemi üzrə təşkil olunan yarış Naxçıvan Dövlət Universitetinin idman zalında keçirilib.



Nəticəyə əsasən, Naxçıvan Dövlət Universitetinin tələbəsi Fəridə Hənifəyeva bütün rəqiblərini üstələyərək yarışın qalibi adını qazanıb. Dövlət universitetinin digər tələbələri – Röya Quliyeva, Arzu Əliyeva və Zərövşən Yusifəliyeva isə digər pillələrdə qərarlaşıblar.

# Şahmat Mərkəzində turnir

***Dünən Naxçıvan şəhərindəki Şahmat Mərkəzində daha bir turnir keçirilib.***

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və Şahmat Federasiyasının birgə təşkil etdiyi turnir 10-17 noyabr – beynəlxalq tələbə-gənclər həftəsinə həsr edilib. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən şahmat üzrə turnir gərgin mübarizə ilə yadda qalıb.



Olimpiya sistemi üzrə təşkil edilən yarışın qalibi adını Naxçıvan Dövlət Universitetinin (NDU) tələbəsi Röya Müslümzadə qazanıb. Naxçıvan Özəl Universitetinin (NÖU) tələbəsi Əli Hüseynzadə isə rəqibindən geri qalaraq ikinciliklə kifayətlənib. Əli Məmmədov (NDU) və Eldar Sadıqov (NÖU) isə üçüncü olublar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 944